

Zemfira Məhərrəmli
yazıçı-publisist

Ədalət.-2021.-9 oktyabr.-S.6.

# Haqqındır Zəfər!

**Çağdaş poeziyamızda bir Elnur Uğur imzası var, bu imzanı çoxları tanıyır və dəyərləndirir. Şair "Unuda bilməyəcəyəm" adlı ilk kitabından sonra "Şəhid məzarı", "Yuxuna gəlim", "Təkcə sən bilirsən" və "Qara qayğılı Qarabağ" adlı əsərlərini ərsəyə gətirib. İran İslam Respublikasında "Quşlar yuvasız olmasın" adlı şeirlər kitabı çap olunub.**

Orijinal müəllif müdaxiləsi, obyektiv mövqeyi ilə seçilən Elnur Uğurun vətəndaş yanğısı ilə yazdığı düşündürücü əsərlər maraqla qarşılanır və böyüyən nəslə, elə hər birimizə yurdu, məmləkəti can-dildən sevməyi təlqin edir. Axı, o, ədəbiyyatçı olmaqla yanaşı, eyni zamanda müəllimdir, yetirmələrinin təlim-tərbiyəsi ilə məşğul olur.

Onun "Hadrut fatehi" poeması da müəllifin Azərbaycan sevgisindən qaynaqlanıb. Vətən eşqi ilə nəfəs alan şairin bu əsəri ən başlıcası bədiiliyi, lakonizmi ilə yadda qalır. Elnur Uğur bədii fakta bələdliklə yazır, baş vermiş olaylara bədii həll tapır. Çatdırmaq istədiyi məramlara bədii çözümü məharətlə müəyyənləşdirir. Haqqında söz açdığımız bu epik əsərin süjeti və kompozisiyası dolğun, dili obrazlı və rəvandır.

Müəllif bu poemanı doğma yurdun ərazi bütövlüyü naminə müqəddəs Vətən savaşında mərdliklə döyüşmüş qazilərimizin adına və şəhidlərimizin ruhuna dərin ehtiramla qələmə alıb. Belə igidlərdən biri də Vətən Müharibəsi Qəhrəmanı, "Vətən uğrunda", habelə Cəbrayılın, Füzulinin və Xocavəndin azad olunmasına görə medalları ilə (ölümündən sonra) təltif edilən şəhid Camal İsmayılovdur. O, həm də "Hadrut fatehi" əsərinin qəhrəmanıdır.

Kitaba ön sözü 44 günlük Vətən müharibəmizin davam etdiyi günlərdə səhifələrində ədalətli savaşımızdan bəhs edən çoxsaylı bədii mətnləri çap edən "Ədəbiyyat qəzeti"nin baş redaktoru, filologiya üzrə fəlsəfə doktoru Azər Turan yazıb. Ön söz müəllifinin fikrincə, "Elnur Uğur "Hadrut fatehi" əsəri ilə yurdumuzun hünərvər oğlu Camal İsmayılova dəyərli poetik abidə ucaldıb".

Elnur Uğur öz qəhrəmanının qısa, lakin çox şərəfli bir ömür yaşadığını, dara düşmüş məmləkətimizin harayına qalxıb odlu cəbhələrdən keçdiyini, işğal edilmiş yurd yerlərimizin mənfur düşməndən təmizlənməsi uğrunda döyüşlərdə şəhid olduğunu həyati, canlı bədii lövhələrlə əks etdirib. Poemanın proloqunda maraqlı poetik bənzətmələrlə qarşılaşırıq. Müəllifin təbirincə, "ruhları göylərdə cəng edənlərin" Vətənə fəda olmuş şirin canları doğma yurdun köksündə bir xəzinədir. Torpaq uğrunda həlak olan oğullar Vətəni müqəddəs Kəbə bilərək ona tapınmışlar. Müəllif şəhid məzarlarını qibləgahı sayır:

*Uğrunda canından keçən oğullar*
*Səni Kəbələri bildilər, Vətən!*
*Məzarlar sinəndə qibləm oldular,*
*Səni məzar-məzar böldülər, Vətən!*
*Ruhları göyündə cəng edənlərin,*
*Canları səndədir xəzinə kimi.*
*Şəhid məzarına baxanda bildim*
*Varlığın yoxluqla isindiyini.*

Ölümlərin alisi şəhidlikdir. Şəhidlik elə uca məqamdır ki, hər kəsə nəsib olmaz. Müqəddəs torpaq savaşında hər şeyi göz altına alıb yalnız "Vətən sağ olsun!" deyərək ölümə atılanlar bu məqama yüksələ bilərlər. Şair şəhid məzarına baxarkən varlığın yoxluqla isinərək təsəlli tapması qənaətini dilə gətirir. Müəllifə görə, şəhid məzarını ziyarət etmək bir ibadətdir. Axı, şəhid məzarında "bir can yatır, cahan sevgili", yurd sevdalı. Şəhidlərin məzarları əslində azadlığımızın boy verən heykəlləridir:

*Fırlanır başıma dünya burada,*
*Bu məzar daşına dönmək ibadət.*
*Burdadır heykəli azadlığımın,*
*Burdadır Qazilik, Qəza, Şəhadət.*




Məzmun və ahəngi həmahəng olan, şövqlə, ilhamla hasilə gətirdiyi bu poeziya nümunəsində ictimai-siyasi səciyyəli, mübariz ruhlu, məna tutumu ilə diqqəti çəkən misralar da oxucuya bələdçilik edir.

Bu sətirlərdə Birinci Qarabağ savaşında itirdiyimiz yurd yerlərimizin ağrı-acısı, dərd-kədərimiz, şairin qəlb çırpıntıları və haqsızlığa etirazı "göyərib":

*Əkildi danışıq masalarından,*
*Düşmən öz qoyduğu ağır şərt ilə.*
*30 il Qarabağ yandı, alışdı,*
*Yaşadı köksündə ağır dərd ilə.*
*Daşdı, nəhayət ki, səbr kasası,*
*Çıxdı qeyrətinin qılıncı qından.*
*Daha ayaqları kecdi ərlərin*
*Bir vaxt könlü keçən Qarabağından.*

İşğalçı erməni millətçilərinin törətdiyi vandalizm əməllərinə dözməyən xalqımızın öz müdrik Sərkərdəsinin və yenilməz ordusunun ətrafında Zəfərə aparan odlu cəbhələrdə sıx birləşməsi şairi vəcdə gətirir:

*Düşmən çox geyindi hiylə donunu,*
*Cəbhədə fitnəyə, şərə əl atdı.*
*Ali Baş Komandan "Vur!" əmrin verdi,*
*Oğullar cəbhədə cəbhə yaratdı.*

Qanlı cəbhələrdə cəbhə yaradan oğullardan biri də əsərin qəhrəmanı Camaldır. Bu el igidindən söz açanda "adına Camal dedilər, o da camalı oldu həqiqətin, cəsarətin" söyləyir Elnur Uğur. "Vətən sevdasına təşnəliyi dadan", Vətən deyəndə dodaqları təpiyən Camal aslan pəncəli, qartal baxışlı oğulların ön cərgəsindəydi:

*Sevgiylə atdı o, hərbi addımlarını,*
*Ümiddən doldurdu silahını,*
*Arzularını tuşladı Şuşaya...*
*Azad eləməyə Qarabağı tələsdi.*

Şair "Vətən azaddırsa, biz xoşbəxtik ancaq" deyən qürurlu Camalın vaxtilə doğmaları, valideynləri ilə bölüşdüyü fikirlərə köklənir. O, düşmən üzərində qalibiyyət axıdılan şəhid qanlarıyla qazanılır fikrini təsdiqləyir:

***Vətən sağ olmasa,***
***Biz nəyik, kölə?***
***70 il müstəmləkə,***
***30 il işğal.***
***Bu qədər ləkə***
***Alnımızdan Şəhidlərə***
***Görə təmizləndi...***

Düşmənə nifrətdən alışıb-yanan, şərəfsiz qonşunun yaramaz xislətindən qeyzlənən şair erməni gavurlara qan udduran Camalın və onun silahdaşlarının hünərinə sevinir:

*Mənim qəhrəmanım, sən bir ulusun*
*Yenilməz olduğun sübut elədin.*
*Düşmənə yurdumda yurd torpağını*
*Elə özü boyda tabut elədin.*

Şair Laçın dəhlizinə açılan zirvədə on altı igidlə birgə şəhid olan qəhrəmanımızı "Zəfər sözünün səhər müjdəsi" adlandırır.

Oğlu doğulacağını bilən və ona Alparslan adı verilməsini istəyən Camalın bu arzusunun da həyata keçməsindən duyğulanan müəllif qəhrəmanın şəhadətindən sonra dünyaya gəlmiş körpəni "Türkün şanlı övladı", igid atasının davamı, gələcək Vətən əsgəri hesab edərək:

***Gəlişin mübarək, doğuluşunla***
***Canlandır soyunun dirilişini,***

- deyir.

Sonra isə:

*Bax, sənin atan da bir dəqiqədə,*
*Hadrut qapısını gücüylə açdı.*
*Adı çəkiləndə mənfur düşmənlər,*
*Döyüş meydanını boş qoyub qaçdı,*

- söyləyir.

Müəllifin fikrincə, rəşadətli oğullarımız hünərləri, ərzi silkələyən döyüşləri, qarı düşməni geri oturdan sərrast həmlələri ilə möhtəşəm Zəfərin təməlini qoydular. Qalibiyyətli döyüş isə "Qarabağ Azərbaycandır!" deyiminin, sözün əsl mənasında nidası oldu. Şairə görə, onun qəhrəmanı bu torpaqlarda diriliş rəmzidir:

***Qələmə aldığım***
***bu şəhid misralarda***
***Camalını görürəm Camalın!***
***Gülüş dolu çöhrə.***
***Bir səs yayılır üfüqlərə:***
***"Biz qalib gəldik!".***

"Hadrut fatehi" poeması 44 günlük Zəfər savaşımızla bağlı qələmə alınmış gözəl bədii örnəklərdən biridir. Əsərin sonunda müəllifin kökləndiyi nikbin notlar şəhidlərimizin ölümündən doğan hüzn-kədəri üstələyir, Vətən müharibəmizin xalqımızın haqq işi olduğunu, qazandığımız Qələbə ilə tarixi ədalətin bərpa edildiyini dünyaya bəyan edir:

*Bu gün bütün dünya bax, səninlədi,*
*Ey azad Vətənim, adın müzəffər.*
*Şəhidlər qanıyla təsdiq elədi:*
*Haqqındır, haqqındır, haqqındır Zəfər!*